DÖVLƏT VERGİ XİDMƏTİ

# Cari vergi ödəmələri barədə bunları bilməlisiniz!

## Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 01.01.2024-cü il tarixdən etibarən

❖ Əvvəllər vergi tutulan mənfəəti (gəliri) olmayan vergi ödəyicilərinin mənfəət vergisi və ya gəlir vergisi üzrə cari vergi ödəmələrinin hesablanması zamanı əvvəlki illərdə yaranmış zərər məbləğləri vergi tutulan mənfəətdən (gəlirdən) çıxılır.

## Dəyişikliyə qədər

Bəzi hallarda vergi ödəyicisinin əvvəlki illərdə yaranmış zərəri cari il üzrə mənfəətindən dəfələrlə artıq olur ki, bu kimi hallarda həmin vergi ödəyicisi tərəfindən Vergi Məcəlləsinə əsasən cari vergilərin hesablanması əlavə borcların yaranması və ya artıq ödəmələrin yaranmasına, vergi ödəyicilərinin pul vəsaitlərinin likvidliyinin azaldılmasına səbəb olurdu.

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

**Nə dəyişdi?**
Bu səbəbdən, əvvəllər fəaliyyəti və ya vergi tutulan mənfəəti (gəliri) olmayan vergi ödəyicilərinin mənfəət vergisi və ya gəlir vergisi üzrə cari vergi ödəmələri hesablanarkən **əvvəlki illərdə yaranmış zərər məbləğlərinin çıxılması** nəzərə alınacaqdır.

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 01.01.2024-cü il tarixdən etibarən**

❖ Mənfəət (gəlir) vergisi üzrə cari vergi ödəmələrinin hesablanması zamanı verginin xüsusi çəkisini göstərən əmsal müəyyən edilərkən yalnız vergiyə cəlb olunan gəlirlər nəzərə alınır.

**Dəyişikliyə qədər**
Mənfəət (gəlir) vergisi üzrə cari vergi ödəmələrinin hesablanması zamanı verginin xüsusi çəkisini göstərən əmsal müəyyənləşdirilərkən vergidən azad edilən gəlirlərin də nəzərə alınması göstəricinin təhrif edilməsinə səbəb olurdu.

**Nə dəyişdi?**
Dəyişiklikdən sonra mənfəət (gəlir) vergisi üzrə cari vergi ödəmələrinin hesablanması zamanı xüsusi çəki müəyyən edilərkən yalnız vergiyə cəlb olunan gəlirlər nəzərə alınacaqdır.

**Dövlət büdcəsinə ödənilməli olan vergilər barədə ətraflı məlumatla www.taxes.gov.az internet saytında tanış ola bilərsiniz.**

**BAKI — 2024**